

*Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir...*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

# Aprel döyüşləri

# Qarabağ Zəfərinin ilk qığılcımı

*İkinci Qarabağ müharibəsinin qələbə carçısı olan Aprel döyüşlərindən 9 il keçir. Həmin ərəfədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayaraq bildirmişdi ki, Ermənistan ağır silahlardan istifadə etməklə qoşunların təmas xətti boyunca Silahlı Qüvvələrimizin mövqelərini intensiv atəşə tutub, təxribat və həmlələr həyata keçirib.*

Düşmən qüvvələrinin bu əməli bir daha aydın şəkildə göstərdi ki, rəsmi İrəvanın tək hədəfi heç də Qarabağla yekunlaşmır. Onlar imkan düşdüyü təqdirdə, digər ərazilərimizi də işğal etməyə cəhd edirlər. Aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitlərinin öz qanı və canı bahasına göstərdiyi şücaət sayəsində düşmən təxribatının qarşısı rəşadətlə alındı.

**(davamı 7-ci səhifədə)**

# Aprel döyüşləri Qarabağ Zəfərinin ilk qığılcımı



(əvvəli 1-ci səhifədə)

Ordumuzun bölmələri sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdilər. Həmçinin minlərlə hektar ərazi Azərbaycanın tam nəzarətinə keçdi. Nəhayət ki, xalqımız uzun illərdən sonra qələbə sevincini yaşadı. Bu, Aprel döyüşləri kimi tarixin yaddaşına həkk olundu. Qeyd edək ki, əhatə dairəsinə görə həmin tarixə qədər, sonuncu ən uğurlu əməliyyat ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə oldu. Azərbaycan Silahlı Qüvvələrinin 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi.

2016-cı il aprelin 2-nə keçən gecə Azərbaycan Ordusunun bütün mövqelərini, həmçinin mülki əhalini atəşə tutan ermənilərə cavab reaksiyası bu dəfə sərt və qəti oldu. Ölkə rəhbərliyi tərəfindən dərhal adekvat tədbirlərin görülməsi ilə bağlı göstəriş verildi. Beləliklə, qarşı tərəfə cavab zərbələri endirildi. Düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən koordinatlar müəyyənləşdirildi, Ermənistan ordusunun canlı qüvvəsi və hərbi texnikası məhv edildi. Talış kəndi istiqamətindəki strateji yüksəkliklər düşməndən təmizləndi. Bununla da Naftalan şəhərinin təhlükəsizliyi daha da möhkəmləndi. Eyni zamanda Horadiz şəhərinin müdafiəsini təmin etmək və düşmənin təhlükəsini aradan qaldırmaq məqsədilə Füzuli rayonu istiqamətində yerləşən və mühüm hərbi-strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyi azad olundu. Həmçinin Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində bəzi mövqelər düşməndən geri qaytarıldı.

Döyüşlərin son günündə Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq ümidi ilə yenidən hücuma keçdi. Düşmən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizi sarsıtmaq və təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutmaq istəyirdi. Lakin düşmən bu niyyətinə çata bilmədi. Azərbaycan əsgərlərinin sarsılmaz iradəsi və qəhrəmanlığı qarşısında düşmənin bütün cəhdləri iflasa uğradı. Məğlubiyyətini qəbul edə bilməyən düşmən əlavə qüvvələr göndərərək hücumlarını davam etdirməyə çalışdı. Lakin bu plan da puça çıxdı. Ordumuzun bölmələri düşmənin strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Suqovuşan məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa dəqiq zərbələr endirərək düşmənə ağır və sarsıdıcı zərbələr vurdu. Eyni zamanda Ermənistan ordusunun Ağdərə, Suqovuşan və digər yaşayış məntəqələrindən göndərməyə cəhd etdiyi ehtiyat qüvvələr ordumuzun qabaqlayıcı zərbələri ilə darmadağın edildi. Bu Azərbaycan Ordusunun əzmini və müzəffər olduğunu bir daha düşmənə sübut etdi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi. Bu döyüşlərdə erməni silahlı qüvvələri ağır itkilərə məruz qaldılar. Məlumata görə, düşmənin 320-dən çox hərbi qulluqçusu məhv edildi, 500-dən artıq əsgəri isə ağır yaralandı. Azərbaycan Ordusunun dəqiq və sarsıdıcı zərbələri nəticəsində qarşı tərəfin 30-a yaxın tankı və digər zirehli texnikası, eləcə də 25-dən çox artilleriya qurğusu tamamilə sıradan çıxarıldı. Eyni zamanda Ağdərə-Suqovuşan və Cəbrayıl istiqamətindəki yollar üzərində nəzarət təmin olunaraq düşmənin hərəkət imkanları ciddi şəkildə məhdudlaşdırıldı.

Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə Prezidenti Ali Baş Komandan İlham Əliyev deyib: "Bu bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək". Dövlət başçısının bu sözləri çox keçmədi ki, reallığa çevrildi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatları ilə başlayan İkinci Qarabağ müharibəsində və 2023-cü il 19-20 sentyabr Xankəndi və ətraf ərazilərdə aparılan lokal xarakterli antiterror tədbirlərində Azərbaycan həm ərazi bütövlüyünü, həm də suverenliyini tamamilə bərpa etdi. Dövlət başçısının hərbi və siyasi müdrikliyi, xalqın iradəsi, o cümlədən hərbçilərimizin cəsarəti sayəsində 30 illik işğala son qoyuldu. Xalqımız 44 günlük Vətən müharibəsində Liderinin və ordusunun ətrafında bir yumruq kimi birləşdi.

Aprel döyüşlərində qazanılan qələbə Qarabağ zəfərinin ilk qığılcımı kimi tarixə düşməklə yanaşı, həm də Böyük Qayıdışa yol açdı. Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi bir dönüş nöqtəsinə çevrildi. Bu strateji qələbə nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin təhlükəsiz yaşayışı tam təmin olundu. Azərbaycan Ordusunun rəşadəti sayəsində kənd sakinlərinin doğma yurdlarına qayıtmasının önü açıldı. Məhz bu şanlı qələbədən sonra, Prezident İlham Əliyevin 2017-ci il 24 yanvar tarixli Sərəncamı əsasında Cocuq Mərcanlının bərpası və sakinlərin geri dönüşü reallaşdı. Bununla da "Böyük Qayıdış"ın təməli qoyuldu. Kənddə genişmiqyaslı abadlıq və tikinti işləri həyata keçirildi. Qısa müddət ərzində burada 100 yaşayış evi, tibb məntəqəsi, 50 yerlik uşaq bağçası, klub-icma mərkəzi, inzibati bina, poçt şöbəsi və 10/04 kV-luq kompleks transformator məntəqəsi inşa edildi.

Ölkənin ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə bir qrup hərbçi 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri adlara layiq görüldü, orden və medallarla təltif edildilər. Vətən qarşısındakı xidmətlərinə görə əsgər və zabitlərimiz "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görüldülər.

**Musa BAĞIRLI,**
**"Respublika".**